

# "Uğurumu şansıma buraxmağı sevmirəm"

## Hökümə Kərimova: "Özünü tanıdınsa, sənə zaval yoxdur"

**Aygün ƏZİZ**

**Özünə dəyər verir. Düşünür ki, səsini duyurmaq üçün iki əlinin olması labüd deyil, tək əldən də səs çıxır. Ona görə də insan çalışsa və öz üzərində işləsə, uğurlu karyera başına gələ biləcək ən gözəl hadisədir. Müsahibimiz YARAT Müasir İncəsənət Məkanının əlaqələr üzrə meneceri Hökümə Kərimovadır.**

Əvvəlcə müsahibimizi tanıyaq:

Orta təhsilini Bakıdakı 220 saylı məktəbdə alıb. Məktəbdə oxuduğu müddətdən həyatını təkcə dərslərlə çərçivələməyib. Aktiv şagird həyatı keçirib və məktəbin bütün layihələrində iştirak edib. Bu layihələrdən biri ABŞ-da Şagird mübadiləsi proqramı olub. "Project Harmony"nin həyata keçirdiyi layihənin finalçısı olaraq ABŞ-ın Florida ştatında St Cloud High Schoolda bir müddət şagird olmaq şansını qazanıb. Daha sonra təhsilini davam etdirərək Azərbaycanda Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin Beynəlxalq münasibətlər ixtisasını ən yüksək fəxri diplomla bitirib. Universitetdə təhsil aldığı müddətdə ABŞ dövlətinin UGRAD proqramının seçimlərində özünü sınayıb və yüzlərlə insan arasında finalçı olaraq təhsilini ABŞ-ın Ayova ştatının Vartburq Universitetində Beynəlxalq münasibətlər ixtisası üzrə alıb. Amerikada həm universitetin tələbə qəbul şöbəsində, həm də tələbələrlə iş üzrə beynəlxalq münasibətlər və mədəniyyətlər şöbəsində təcrübə keçib. 2007-ci ildə Barak Obamanın seçki kampaniyasında da iştirak edib.

**- Xaricdə təhsil sizə nə verdi?**

- Xaricdə təhsil mənə aksiomları təkzib etmə və öz aksiomamı yarada bilmə gücünü verdi. Təhsil aldığım dönəmdə olduğum universitetdə tək azərbaycanlı idim və buna baxmayaraq, çəkinmədən ölkəni təmsil etmə istiqamətində əlimdən gələni edirdim. Anladım ki, səsini duyurmaq üçün iki əlinin olması labüd deyil, tək əldən də səs çıxır. Xaricdə təhsil mənə bir şəxsiyyət kimi formalaşmağı, dünyada digərlərinin cızdığı çərçivədən kənara baxmağı, ayaqlarımın deyil, məntiqimin və xəyallarımın vəhdətinin götürdüyü yerə getməyimin nə qədər önəmli olduğunu öyrətdi və bunu həyata keçirməyimə səbəb oldu.

**- Uğurlu karyerada qadın olmağın avantajları və dezavantajları nələrdir?**

- Mənə görə, karyerada qadın və ya kişi kimi cinsi fərqlilik yoxdur. İnsanlar fərqli xasiyyətlərə və xüsusiyyətlərə mənsub ola bilərlər və yalnız bu, onları karyeranın hansısa mərhələsində ya yuxarıya qaldıra, ya da endirə bilər. Ümumiyyətlə, qadınların karyera sahibi olmaları və bunun sayəsində ailələrinə, ətrafındakılara insanlara olan müsbət təsirlərinin artması danılmazdır. Ailələrdə böyüyən uşaqların dünyagörüşü və sonrakı taleyi birbaşa karyera sahibi olan, sözlərini cəmiyyətdə deyə bilən və ayaqları üstə durmağı bacaran valideynlərdən mütləq şəkildə asılıdır.

**- Sizcə, insan neçə yaşından karyera qurmağa başlamalıdır? Yəni karyera qurmağın yaşı varmı?**

- Doğuşdan istedadı olan 15 faizi nəzərə almasaq, karyera üçün uzun illər çalışmaq lazımdır. Çalışarsan və öz üzərində işləyərsənsə, karyera başına gələ biləcək ən gözəl hadisədir. Karyeranın yaşı yoxdur. Ona gedən yolda qoyulan əzmkarlıq ən vacib açardır. Özümdən misal gətirsəm, ilk ödənişli işimdən əlavə 15 ildən çox könüllü fəaliyyətlə məşğul olmuşam. Bundan çox böyük zövq almışam. Mənə görə, lazımlı olmaq və könüllülük həm də şəxsi inkişafa yatırımdır. Bu, enerji və istək investisiyası mütləq karyerada sizə geri dönəcəkdir.

**- "Obama Amerika üçün" kampaniyasında araşdırmaçı kimi iştirak etmisiniz. O günlərdən danışardınız. Sizi təəccübləndirən və ya maraqlı gələn hansısa məqamı xatırlayırsızmı?**

- Bu kampaniya mənim həm şəxsi inkişafım, həm də



karyeram üçün çox böyük təcrübə oldu. Xaricilərlə çalışdığım ilk iş olduğunu nəzərə alaraq, deyə bilərəm ki, bu təcrübə mənim üçün professionallıq, dəqiqlik, işə məsuliyyətlə yanaşmaq adlı məktəbin əsasını qoydu.

**- Uğurlu gənc qadın obrazı kimi Azərbaycan qızlarına, qadınlarına nə demək istərdiniz?**

- Qorxmayın! Özünüzün professional inkişafınıza yatırım etməkdən, yeni mühitə çıxmaqdan, yeni iş ortaqları ilə tanışlıqlardan çəkinməyin. Uğursuz olmusunuz? Qoy, bu sizə yenidən öz üzərində işləmək və daha böyük uğurlara imza atmaq üçün stimul olsun. Bir çox gəncin dediyi kimi, sizə də arzularınızı gerçəkləşdirmək üçün evdən icazə vermirlər? Bunu bəhanə etmədən evdəkiləri də özünüzlə tədbirlərə aparın və əmin olun ki, layihələrin, tədbirlərin önəmini görüb sizə dəstək olacaqlar. Ən azından, buna cəhd edin. Cəhd etdiyiniz halda, istəkləriniz sizə mütləq cığır açacaq. Hədəflərinizdən yan keçməyin.

**- Gənclərimizin bir çoxu fikirləşir ki, karyera qurmaq üçün mütləq ya pulun, ya da "day-day"ın olmalıdır. Sizcə, iş həyatında irəliləmək üçün nə lazımdır?**

- İş həyatında irəliləmək üçün şəxsi motivasiya, dayanmadan çalışmaq, başqalarından tərif gözləmək əvəzinə özünə dəyər vermək, özünə zamanla gördüyün işlər həcmində və zamanında şəbəkə qurmaq lazımdır. Bunlar olduğu halda karyera üçün başqa dəyərlərin də formalaşacaq.

**- Karyera və ailə. Azərbaycan qadını üçün ikisi bir arada çətin deyil ki?**

- Asan deyil. Amma ailədən və ətrafındakı gözəl insanlardan dəstək olduğu halda, yeni bir həvəslə daha böyük işlər görüb ailənin gələcəyi üçün daha çox çalışmağa həvəslənirsən.

**- Sizcə, uğur qazanmaqda şans nə dərəcədə rol oynayır?**

- Şans rol oynayır. Amma hər şeyi şansa buraxmaq doğru deyil. Şans həm əzmi sevir, həm də çox çalışmağı. Mən, məsələn, az yatıb çox çalışmağı uğurlarımı şansıma buraxmaqdan üstün tuturam.

**- Uğurun sirri nədir?**

- Mənim üçün uğurun sirri deyə bir şey yoxdur. İnsanlar, sadəcə, özlərini yaxşı tanımalıdırlar. Elə ki, özünü yaxşı tanıdın, istəklərini çözə bildin, ondan sonra qoyduğun uğur hədəfinə doğru planlarını da qura biləcəksən. Addımbaaddım həmin hədəfə doğru irəliləyəcəksən. Əsas odur ki, özünü tanımaqda uğurlu olmalısan. Bunu bacardınsa, sənə zaval yoxdur, həyatda da özünü tapa biləcəksən.

**- Gələcək planlarınız nədir?**

- Cəmiyyətimiz üçün yararlı ola biləcək, bizim hamımızı inkişafa aparacaq daha böyük layihələrə imza atmaq. Yararlı vətəndaş olmaq və bunun zövqünü yaşamaq.

